Heydər Əliyev - xalq birliyi əbədidir!

AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 09 (797) | 18 -28 aprel 2015-ci il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı



"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".
Heydər Əliyev

Heydər Əliyev-92

ƏSRİN DAHİ ŞƏXSİYYƏTİ

Tarix təkcə sivilizasiyaların meydana çıxardıqları hekayətlərdən ibarət deyil. Tarix həm də varlığı, həyatı, arxasında buraxıb getdiyi iri bir sivilizasiya qədər böyük olan şəxsiyyətlərdən ibarətdir. Tarix onun böyük çarxına istiqamət verən dahilərdən ibarətdir. Əvəzolunmaz insan yoxdur deyirlər. Laki, təkrarsız insanlar var. Tarixin özü kimi. Bir dəfə yaranır-yazılır, bir dəfə yaşayış-həkk olur, bir dəfə köçür-köçürülür. Beləcə tarixin özü olanlar var. Azərbaycan xalqının tarixə bəxş etdiyi, başqa sözlə tarixin xalqımıza bəxş etdiyi ən böyük şəxsiyyətlərdən biridir HEYDƏR ƏLİYEV.



Ömür var ki, bir ömürə sığır, ömür var ki, milyon ömrə sığmır. Heydər Əliyev ömrü milyon ömrə sığmayan bir ömürdür. Heydər Əliyev ömrü adi insan ömrünün fövqündə, səksən illik tarixin ömrüdür. Heydər Əliyev ömrü elə tarix ömrüdür, tarixi ömürdür. El arasında sadə bir məsəl var. Deyirlər ki, cənnətini bu dünyada qazanıb getdi. Heydər Əliyev həyatı özü bir cənnət oldu. Azərbaycan adlı bir cənnət. Azərbaycan cənnətinin cənnətdarı da məhz Heydər Əliyev oldu. Adı ölkənin, torpağın adı ilə eyniləşən nadir şəxsiyyətlərdən biri oldu Heydər Əliyev bu gün Azərbaycan deyəndə hər kəs həm də Heydər Əliyevi düşünür.

Hər əsr bir dahinin adına yazılır deyillər. Heç şübhəsiz ki, yaşadığı dövr də məhz ulu Heydər Əliyevin adına yazıldı. Ölkənin bütün uğurlarında, beynəlxalq aləmdə Azərbaycan adının brendə çevrilməsində onun adı, onun imzası, onun izi var. Bu gün o artıq təkcə Azərbaycanın yox, bütün dünyanın sərvətidir, bəşəriyyətin dahisidir. Azərbaycanın bütün sahələrində quruculuq, inkişaf, gələcəyə hesablanan uzaqgörən addımlar məhz onun adı ilə bağlıdır.

XX əsrin 90-cı illərində Azərbaycan müstəqilliyini bərpa etdiyi zaman dünya miqyasında mürəkkəb və ziddiyyətli geosiyasi proseslər baş verirdi. Belə bir şəraitdə müstəqil dövlət qurmaq son dərəcə müdrik, yaradıcı və çevik yanaşma tələb edirdi. Azərbaycan 1993-cü ildən başlayaraq bu vəzifənin öhdəsindən gəlməyə başladı.

Bu, Heydər Əliyevin Naxçıvandan Bakıya dəvət edildiyi gün idi. Heydər Əliyev qarşısında duran vəzifələri həll etmək üçün yalnız siyasi-diplomatik üsula üstünlük verdi. Ən çətin anlarda belə, Heydər Əliyev danışıqlar, diplomatiya yolunu seçdi. Əvvəla, bununla o, cəmiyyətimizin fərqli cəhətlərini nəzərə alaraq gələcək düşmənçiliyin yaranmasına imkan vermədi, ikincisi, xarici düşmənlərin bundan yararlanmaq şansını əldə etməsinin qarşısını kəsdi, üçüncüsü, Azərbaycanın siyasi səhnəsində diplomatik fəaliyyət mədəniyyətinin yerini möhkəmləndirdi, dördüncüsü, növbəti nəsil siyasətçilərə nümunə oldu.

Heydər Əliyev bu kimi gedişlərlə faktiki olaraq xarici siyasətin də ümumi cizgilərini və əsas metodlarını yaratdı. O, daxili problemləri həll etmək üçün tətbiq etdiyi siyasi və diplomatik məharətə əsaslanan üsulları xarici siyasi fəaliyyətə proyeksiyaladı. İndi hər kəsin haqqında danışdığı "balanslaşmış xarici siyasət kursu"nun rüşeymləri o vaxtlarda formalaşdı.

Heydər Əliyev Azərbaycanın düşdüyü konkret geosiyasi və tarixi şəraiti nəzərə alaraq xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirməyə başladı. Əvvəlcə, nəzərə alındı ki, qlobal səviyyədə geosiyasi mühit Qərbin xeyrinə ciddi surətdə dəyişib. İkincisi, Rusiya ilə əlaqələri kəsmək çox təhlükəli və tarixi gerçəklik baxımından perspektivsizdir.

(davamı səh. 2-də)

İlham Əliyev "Bakı-2015" ilk Avropa Oyunları məşəlinin yandırılması mərasimində iştirak edib



Aprelin 26-da Azərbaycanın və dünyanın idman tarixində əlamətdar hadisə baş verdi. Bakıda birinci Avropa Oyunlarının məşəli alovlandırıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, ailə üzvləri və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki mərasimdə iştirak ediblər.

Ölkəmizin müstəqillik tarixində ev sahibliyi edəcəyi mötəbər tədbir - birinci Avropa Oyunları beynəlxalq idman ictimaiyyətinin diqqət mərkəzindədir.

Aprelin 26-sı isə ilk Avropa Oyunlarının həyəcanının başlanğıc günü kimi tarixə düşür. Olimpiya ənənəsinə uyğun olaraq, estafet qədim od məbədi olan Atəşgahdan başlayır. Birinci Avropa Oyunlarının məşəli 47 gün ərzində Azərbaycanın hər bir guşəsini gəzib-dolaşaraq, Oyunların açılış mərasimində Bakı Olimpiya Stadionuna gətiriləcək.

ƏSRİN DAHİ ŞƏXSİYYƏTİ

(əvvəli səh. 1-də)

Üçüncüsü, Türkiyə məlum səbəblərdən bölgədə strateji tərəfdaş olmalıdır. Dördüncüsü, İran böyük qonşumuz və ortaq tarixə malik olduğumuz cəmiyyət kimi xarici siyasətdə ciddi yer almalıdır. İranla əməkdaşlıq xətti seçilməlidir. Beşincisi, strateji istiqamət olaraq Qərbə inteqrasiya xətti götürülməlidir.

Ümummilli lider Heydər Əliyev bu konsepsiyanın fonunda Azərbaycanın regionda olan digər dövlətlərə yönəlik xarici siyasət kursunu müəyyənləşdirdi. Bununla da, balanslaşmış xarici siyasət dərin təhlil əsasında dəqiq hesablanmış siyasi proqnozlara uyğun olaraq qurulurdu. Bu siyasətin mərkəzində güclü Azərbaycan dövləti və demokratik cəmiyyət yaratmaq dururdu. Onun əsas vəzifələrindən biri ölkənin pozulmuş ərazi bütövlüyünü təmin etmək idi.

Ulu öndər bu mürəkkəb vəziyyətdə xarici siyasətin qarşısında duran vəzifələri və onun prioritetlərini dəqiq müəyyənləşdirdi. Yığcam şəkildə həmin vəzifələr barədə ulu öndər 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən andiçmə mərasimində danışmışdır. Ulu öndər bəyan edirdi: "Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir". Bunun üçün önəmli vəzifə kimi ümummilli lider bərabərhüquqlu əlaqələr yaratmağı qarşıya qoyurdu. Bu tezisin geosiyasi mənası dərindir. Mərkəzə dövlətin müstəqilliyinin təmin edilməsi gətirilir. Bu o deməkdir ki, Azərbaycan bundan sonra müstəqilliyini qətiyyətlə qoruyacaq.

Bu məqamda Heydər Əliyevin siyasi-diplomatik peşəkarlığı ilə böyük rəhbər və insan kimi güclü iradəsi həlledici rol oynadı. Azərbaycanı yolundan döndərmək mümkün olmadı. Ölkə beynəlxalq aləmdən suverenliyinə və müstəqilliyinə təminat ala bildi və iki istiqamətdə strateji dividend əldə etdi. Birincisi, Qərblə strateji əməkdaşlığa hazır olduğuna dünyanı inandırdı. İkincisi, bu strateji əməkdaşlığın imkanlarından yararlanaraq öz iqtisadiyyatının gələcək inkişafını təmin etmək imkanı qazandı. 1995-ci ilin martında növbəti dövlət çevrilişi cəhdinin qarşısı alınandan sonra Qərblə əməkdaşlıq sazişlərinin bağlanması yolları tam açıldı. 1995-1998-ci illərdə Heydər Əliyev Avropa İttifaqının böyük dövlətləri, o cümlədən Böyük Britaniya ilə (1997-ci il) strateji xarakterli sənədlər imzaladı. Həmin sənədlərdə iqtisadi əməkdaşlıq şərtləri Azərbaycanda siyasi islahatlar və demokratik təsisatların yaradılmasına yardım proqramları ilə yanaşı dururdu. Yəni ulu öndər peşəkar səviyyədə iqtisadi infrastrukturun yaradılmasını siyasi islahatlar proseslərinin dinamikası ilə uyğunlaşdırdı.

Göründüyü kimi, 1993-cü ilin ikinci yarısından Azərbaycan Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə sistemli bir xarici siyasət kursu götürmüşdür. Onun tərkibində qlobal geosiyasi mühitin nəbzini tutan, beynəlxalq münasibətlər sistemində dövlətimiz üçün əlverişli şərait yaradan, ölkənin bütün regionlarda yerləşən dövlətlərə əməkdaşlığını təmin edən istiqamətlər var. Xarici siyasətin prioritetlərinin düzgün müəyyənləşdirilməsi milli dövlətçiliyin inkişaf etdirilməsinin mühüm şərtlərindəndir. Təhlillər göstərir ki, Azərbaycan yalnız 1993-cü ilin ikinci yarısından xarici siyasətini sistemli, düşünülmüş və ardıcıl olaraq aparmağa nail olmuşdur. Ulu öndər Heydər Əliyev mükəmməl xarici siyasət kursu hazırlamışdır. Müstəqilliyimizin iyirmi ildən artıq zamanda toplanan təcrübə sübut edir ki, ölkəmizin xarici siyasət kursu böhranlı situasiyalarda belə, kifayət qədər səmərəlidir.

Ölkəmizə 30 ildən çox rəhbərlik etmiş Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyev nəinki beynəlxalq sferada, həm də iqtisadi sahədə kifayət qədər həlledici addımlar atmışdır. Heydər Əliyev Azərbaycan iqtisadiyyatının inkişafında böyük və müstəsna rolu olan əvəzsiz şəxsiyyətdir. Tarixi təcrübə göstərir ki, zəngin təbii və iqtisadi sərvətlərə malik olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəbdir. Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə yeni iqtisadi yüksəliş başlanıldı, Azərbaycan iqtisadiyyatına xarici investisiyalar yatırıldı, ulu öndər digər sahələrdə olduğu kimi bu sahədə də köklü dəyişikliklərin aparılması üçün yeni imkanlar yaratdı. Bu mərhələdə ilk növbədə gələcək müstəqil və güclü iqtisadi siyasətin zəminləri yaradıldı. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir.

1993-cü ilin yarısından başlayaraq, aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı və bununla da Azərbaycanın iqtisadi inkişafına mahiyyətcə yeni mərhələnin təməli qoyuldu. Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən geniş miqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq edirdi.

Dahi siyasətçinin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində, ağır şərtlərə baxmayaraq, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfatı sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olundu. Ən əsası isə bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli - Azərbaycan modeli yaradıldı.

Heydər Əliyevin rəhbərliyi ilə iqtisadi islahatların mühüm istiqaməti olan özəlləşdirmə prosesi uğurla həyata keçirildi, 1996-cı ildən ümumi daxili məhsul istehsalı ilbəil artmağa başladı, respublikada görülən təxirəsalınmaz tədbirlər nəticəsində iqtisadiyyatda tənəzzülün qarşısı alındı və beləliklə, 1994-1995-ci illərdə bugünkü nailiyyətlərin əldə olunmasının təməli qoyuldu. Hazırda həmin tarixi dövrü təhlil etdikdə onu sabitləşmə dövrü kimi səciyyələndirmək olar. Məhz həmin illərdə geriləmənin qarşısı alındı və 1996-cı ildən etibarən dirçəliş dövrü başladı.

1997-ci ildən sənaye məhsullarının buraxılışında artım müşahidə edilmiş, bu sıradan neft emalı, metallurgiya, ağac emalı, şüşə və çinisaxsı məhsullar istehsalında artım daha yüksək olmuşdur. Digər istehsal sahələrində geriləmənin sürəti azaldılmış, bəzi hallarda isə bu meyl tamamilə dayandırılmış, hasilat sənayesi ilə yanaşı, qeyri neft sektoru da inkişaf etdirilmişdir.

Sənayenin inkişafı ilə yanaşı Heydər Əliyev respublikada kənd təsərrüfatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirirdi. Məhz bu diqqətin nəticəsində respublikada 40-dan çox normativ-hüquqi akt qəbul edilmiş, kənd təsərrüfatı məhsullarının satışında qiymətlər tam sabitləşmiş, idxal-ixrac əməliyyatlarında bütün maneələr aradan qaldırılmışdır.

Azərbaycan Respublikasının iqtisadi siyasətinin öncül istiqamətlərindən biri müstəqil dövlətin neft strategiyasının hazırlanması olmuşdur. Müəllifi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev olan bu strategiyanın həyata keçirilməsinə 1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın aparıcı ölkələrinin ən məşhur neft şirkətləri arasında Xəzər dənizinin Azərbaycan bölməsindəki "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında fəaliyyət müddəti 30 il olan müqavilənin imzalanması ilə başlanmışdır. Azərbaycan üçün həyati əhəmiyyəti olan bu müqavilə həm respublikanın daxilində sabitliyin bərqərar olunması, həm də xarici siyasətdə uğurların əldə edilməsində müstəsna rol oynadı.

Şəxsiyyətin böyüklüyü onun həyatdakı müxtəlif məsələlərə yanaşma tərzi müəyyənləşdirir. Bu keyfiyyət hər kəsə məxsus olmur. Buna görə də tarix də böyük hökmdarlar olsa da, onlardan yaddaşlar da qalanı azdır. Bu cəhətdən xalqımızın bəxti gətirib. Ona görə ki, onun lideri Heydər Əliyev təkcə daxili və xarici siyasət də gözlənilməz gedişləri ilə tərəf müqabilinin heyrətə salan, diplomatik uğurları ilə şöhrətlənən dövlət başçısı deyil, həm də xalqın zaman-zaman yaratdığı mənəvi dəyərlərə atalıq qayğısı göstərən, onları qoruyub saxlayan və zənginləşdirən dahi bir şəxsiyyətdir.

O böyük insanı səciyyələndirən xüsusiyyətlərdən biri də onun elmə, ədəbiyyata, incəsənətə və mədənyyətə daim diqqət göstərməsidir. Onun qayğısı sayəsində 1969-1982 ci illərdə respublikamızda elmin bütün sahələri inkişaf etdi. Dünya miqyasında tanınan alimlərimiz tərəfindən fundamental əsərlər yaradıldı. Geniş profilli, yüksək ixtisalı kadr potensialı yetişdi. Hazırda respublikamızda onlarla ali məktəb fəaliyyət göstərir, elmi tədqiqat instutları elmimizin inkişafına layiqli töhfələr verir. Bütün bunlar respublikamızda yaradılmış sabitliyin, əmin - amanlığın, işgüzar fəaliyyətin nəticəsidir. Bu isə şübhəsiz, xalqımızın böyük oğlu Heydər Əliyevin adı ilə bağlı idi. O məsələni bu cür qoyur: "Ümumi çətinlik nə qədər çox olsa da biz elmə, təhsilə daim qayğı göstərməliyik və elmin inkişafı üçün mövcud imkanlardan daha da çox istifadə etməliyik".

Yaxud mədəniyyəti götürək. İqtisadi vəziyyətin çətin olmasına baxmayaraq, 1969-1982-ci illərdə respublikamızda 3677 klub, 4794 kütləvi kitabxana, 906 kino qurğusu, 25 peşəkar teatr, 4 filarmoniya, 7 musiqi kollektivi, 123 muzey fəaliyyət göstərib. Heydər Əliyevin diqqət və qayğısı sayəsin də doğma Bakımız dünyanın ən möhtəşəm memarlıq tələblərinə cavab verən, orjinal görüşünə malik arxitektura nümunəsinə çevrilib. Misilsiz sənət abidələri olan "Gülüstan" və "Respublika" sarayları İdman kompleksi, kondisoner zavodu, neçə - neçə inzibati və yaşayış binaları, yazıçı, şair və içtimai - siyasi xadimlər üçün ucaldılmış heykəllər Prezidentimizi tarixdə yaşadacaq. Özünəməxsus memarlıq görünüşü olan paytaxtımız XXI əsrdə də adı dünyanın inkişaf etmiş şəhərləri sırasında çəkilir.

O dahi şəxsiyyət həmişə yaradıcı ziyalılara yüksək qiymət verir. Bu məna da onun ədəbiyyat və incəsənət xadimlərinə münasibəti diqqətə layiqdir. Yazıçı və şairlərin mədəni irsinə qayğı, onların kitablarının nəşri, ayrı-ayrı incəsənət xadimlərinin yubileylərinin keçirilməsi olduqca təqdirə layiq işdir və bütün bunlar dövlət səviyyəsində aparılır.

Böyük xidmətlərinə görə Azərbaycanın hərb tarixinə düşmüş şəxsiyyətlərdən biri də ümummilli lider Heydər Əliyevdir. Heydər Əliyev SSRİ dövründə və müstəqil olduqdan sonra Azərbaycana rəhbərlik edərkən ordu quruculuğu, hərbi kadrların hazırlığı məsələsinə xüsusi diqqət yetirmişdir. Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərlik edərkən onu narahat edən məsələlərdən biri də hərbi kadrların çox az olması idi. Hələ Çar Rusiyası dövründə azərbaycanlıların azadlıq eşqinin məhv edilməsi üçün gənclər hərbi xidmətə cəlb edilmir, onlara mübarizə əzmini unutdurmağa çalışırdılar. Bu siyasət sovet hökuməti dövründə də davam etdirilirdi. Ancaq ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə ordu quruculuğu, milli hərbi kadrların hazırlığı məsələsi daim ön plana çəkildi. Ümummilli lider 1971-ci ildə böyük səylər nəticəsində general Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılmasına nail oldu. O vaxt SSRİ-də iki belə məktəb vardı: Naximov və Suvorov adına hərbi məktəblər. Üçüncü belə məktəbin Azərbaycanda yaradılmasının böyük əhəmiyyəti vardı. Bu gün məktəbin məzunları arasında yüksək rütbəli zabitlər, generallar var. Eyni zamanda Heydər Əliyev azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində və eləcə də SSRİ-nin digər məktəblərində oxuması üçün tədbirlər gördü. Heydər Əliyevin SSRİ dövründəki ordu quruculuğu siyasəti müstəqillik qazandıqdan sonra da öz bəhrəsini vermişdir.

Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gəldikdən sonra da ordu quruculuğu siyasətini davam etdirmişdir. Silahlı Qüvvələrdə həyata keçirilən quruculuq işləri, struktur dəyişiklikləri, döyüş əməliyyatlarının vahid rəhbərlik altında planlaşdırılması, hissələrin hərb elminin tələblərinə uyğun idarə edilməsi, kadrların saflaşdırılması, qoşun hissələrinin təxribatçı və siyasi ünsürlərdən təmizlənməsi Azərbaycan ordusunu keyfiyyətcə yeniləşdirdi. Doxsanıncı illərin ortalarından başlayaraq Azərbaycan və NATO arasında sıx və səmərəli əməkdaşlığın yaradılması ordu quruculuğu prosesinin sürətlə təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına gətirib çıxarmışdır. Ulu öndərimizin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına, bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşulmuş, 2008-ci ilin sonundan bu əməliyyat planının ikinci mərhələsi başlanmışdır. İl ərzində 2 mindən çox Azərbaycan hərbçisi NATO proqramlarında və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edir, ən son hərb yeniliklərini mənimsəyirlər. 1997-ci ildən Azərbaycanın hərbi təhsil müəssisələri NATO standartlarına keçmiş, Silahlı Qüvvələrimizin tərkibində yaradılan sülhməramlı bölük, daha sonra isə sülhməramlı tabor NATO xəttilə həyata keçirilən hərbi-humanitar aksiyalarda fəal iştirak edir, münaqişə ocaqlarında təhlükəsizliyin, sülhün təminatına əsgəri dəstək verirlər. Azərbaycan ordusu bu gün dünyanın ən peşəkar, NATO standartlarına cavab verən ordusu ilə bir sırada dayanır. Bunu beynəlxalq təşkilatlar da təsdiq edir. Bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz ümummilli lider Heydər Əliyevin gərgin əməyinin bəhrəsidir.

Bütün bu deyilənləri yekunlaşdıraraq məntiqi bir nəticəyə gəlsək əminliklə deyə bilərik ki, nə qədər Azərbaycan var, Heydər Əliyev siyasi kursu var, İlham Əliyev kimi əzəmətli prezidentimiz xalqımızı daha parlaq bir gələcək, işıqlı sabahlar gözləyir. Biz vətəndaşlara isə bir şey qalır əbədi, dönməz və sarsılmaz bir Azərbaycan, qüdrətli bir dövlət, daha mütərəqqi ölkə naminə daha əzmlə çalışmaq.

Laiq Qələndərli,
Ağstafa rayon Heydər Əliyev Mərkəzinin direktoru

Qəsəbədə görüş

Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev vətəndaşlarla növbəti görüşünü Qarayazı qəsəbəsində keçirmişdi. Qəsəbə orta məktəbinin həyətində keçirilən görüş sakinlər tərəfindən rəğbətlə qarşılanmışdı. Görüşdə səmimi söhbət aparılmış, vətəndaşları narahat edən çətinliklərdən, problemlərdən danışılmışdı. Görüş iştirakçısı Elxan Mustafayev öz çıxışında son illər Ağstafada aparılan tikinti-quruculuq və abadlıq işlərindən danışmış, bütün bunlara görə ölkə başçısı, Azərbaycan xalqının sevimli oğlu cənab İlham Əliyevə dərin minnətdarlığını bildirmişdi.

E. Mustafayev son illər rayonda aparılan abadlıq işlərinin ağstafalıların, buraya gələn qonaqların hamısının ürəyincə olduğunu qeyd edərək bütün bu işlərə görə qəsəbə sakinləri adından Rayon icra hakimiyyətinin rəhbərliyinə də minnətdarlıq etmişdir. E. Mustafayev yaxın vaxtlarda Kür çayının sol sahilində yerləşən yaşayış məntəqələrinin qazlaşdırılması ilə əlaqədar aparılan işləri də yüksək qiymətləndirdi və əmin olduğunu bildirdi ki, bu ilin sonunadək qəsəbə sakinləri mavi yanacaqla tam təmin ediləcəkdir. O, daha sonra qəsəbədəki orta məktəbdə təmir və bərpa işlərinin aparılmasının vacibliyini göstərdi və bu işdə onlara köməklik göstərilməsini xahiş etdi.

Qarayazı orta məktəbinin direktoru Fəramiz Məmmədov öz çıxışında son dörd ildə işlədiyi məktəbin bütün avadanlıqlarla təmin olunduğunu göstərdi və məktəbin təmir olunması üçün o da rayon rəhbərliyindən köməklik göstərilməsini xahiş etdi.

Qəsəbə sakini Sayad Məmmədov çıxış edərək öz şəxsi problemindən danışdı və onun atasının adına olan torpaq sahəsinin mübahisəli vəziyyətdə olduğunu göstərdi və bu məsələnin qanunauyğun şəkildə həll edilməsində ona köməklik göstərilməsini xahiş etdi.

Qəsəbə sakinləri qəsəbəyə gələn yolun təmir edilməsini yüksək qiymətləndirdilər və bu işə görə rayon rəhbərliyinə minnətdarlıq etdilər. Onlar əmin olduqlarını bildirdilər ki, təmir işləri başa çatdıqdan sonra kənd sakinlərinin gediş-gəlişində olan çətinliklər tam aradan qaldırılacaqdır. Rayon icra hakimiyyətinin başçısı M. Quliyev yığıncaq iştirakçıları qarşısında çıxış etdi, onlara imkan daxilində hər cür köməklik göstəriləcəyini bildirdi.

İ. Əliyev

Böyük Qələbənin 70 illiyi

Görün neçə illər keçir o mənfur müharibədən-düz 70 il. Zarafat deyil, bütöv bir ömürdür. Bu yetmiş il ərzində SSRİ məkanında birləşən bütün xalqlar hər il alman faişizmi üzərində Qələbənin ildönümünü böyük ixftixar hissi ilə, qanuni fəxarət duyğusu ilə qeyd etmişlər. Bəli, Böyük Vətən müharibəsində keçmiş sovet xalqları cəbhə dəhşətlərini birlikdə yaşamış, ağır döyüşlərdə bir-birinə arxa, dayaq olmuş, vətən torpağının hər qarışı uğrunda bir yerdə qan tökmüşlər. Tarixə ən dəhşətli müharibə kimi yazılmış vətən müharibəsində bütün xalqların nümayəndələrindən saysız-hesabsız ölənlər, yaralanıb şikəst qayıdanlar və sağlamlığını itirənlər olmuşdur. Ona görə də Qələbə bayramını təkcə rus xalqının ayağına yazmaq olmaz. Bu çətin qələbədə keçmiş sovet ailəsində birləşmiş bütün millətlərin, o cümlədən azərbaycanlıların haqlı payı vardır.

Azərbaycan oğulları təkcə vətən müharibəsində iştirak etməklə kifayətlənməmiş, odlu-alovlu cəbhələrdə hitler cəlladlarına qarşı mərdliklə vuruşmuş, qanlı döyüşlərdə qəhrəmanlıqları göstərmişlər. Vətən torpağı uğrunda canlarını qurban verməyə hazır olan Azərbaycan diviziyalarının igid döyüşçüləri Berlinə qədər şanlı döyüş yolu keçərək xalqımızın mübarizə və qəhrəmanlıq salnaməsinə silinməz tarix yazmışlar.

Mənfur müharibə Ağstafanın şəhər və kəndlərindən də yan keçməmişdir. Müharibənin ilk günlərindən rayonumuzun igid oğulları silaha sarılıb cəbhəyə yollanmış, vətənə soxulmaq istəyən faşistlərə qarşı ölüm-dirim mübarizəsinə qalxmışlar. Qanlı cəbhələrə gedən həmyerlilərimizin yarıdan çoxu müharibədən qayıtmasa da, qayıdanların bir qismi şikəst olsa da, camaatımız sarsılmadı, yüksək dözümlülük və mətinlik nümayiş etdirərək müharibənin vurduğu yaraları sağaltmaya başladı. Müharibədən qayıdan veteranlar da arxa cəbhənin iştirakçıları ilə əl-ələ verərək quruculuq işlərinə başladılar. Cəbhədən orden və medallarla qayıtmış veteranlarımız Müseyib Allahverdiyev, Əmrah Əhmədov, Rəhim Rəhimov, Ziyəddin Mansurov, Cavanşir Əfəndiyev, Sürəyya Eyyubova, Salman Çəndirli, İslam Mirzəyev və bir çox başqaları hər Qələbə bayramında gənclər qarşısında çıxışlar etmiş, yeni nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, vətəni göz bəbəyi kimi qorumaq ideyalarını aşılamışlar. Bu gün onların çoxunun həyatda olmamasına baxmayaraq ideyaları hələ də yaşayır, tövsiyələri, öyüd-nəsihətləri qulaqlarda səslənir.

Budur, növbəti Qələbə bayramı ərəfəsindəyik. Bu böyük Qələbəni qanları, canları bahasına qazanan insanların çox əksəriyyəti indi həyatda yoxdur. Ancaq hər Qələbə bayramında olduğu kimi, indi də xalqımız onları heç vaxt unutmur, xatirələrini ehtiramla yad edir. Düzdür, müharibə veteranlarının sayı ildən-ilə azalır. Buna baxmayaraq hazırda yaşayan müharibə iştirakçıları hər yerdə Qələbə bayramının təntənələrini bəzəyir. Onların sayı azaldıqca müstəqil dövlətimiz veteranlara qayğını durmadan artırır. Onlara göstərilən qayğı və diqqət rayonumuzda da müntəzəm olaraq həyata keçirilir.

Doğma Azərbaycanımız vətən müharibəsinin yaralarını tamamilə sağaldıb qurtarmamış nankor erməni qonşularımız tərəfindən qeyri-qanuni müharibəyə cəlb olunmuşdur. Torpaq iddiası ilə vətənimizə təcavüz edən erməni quldurları o vaxt alman faşistlərinin törətdikləri vəhşilikləri 25 ildir ki, xalqımızın başına gətirir. Ata-babaların şanlı döyüş ənənələrini davam etdirən igid oğullarımız onlara ləyaqətlə cavab versələr də hələ də bu münaqişə sona yetmir. Respublikamızın hər bir guşəsində neçə-neçə şəhid məzarlarımız vardır. Bu Qələbə bayramı günlərdə hər yerdə vətən müharibəsi abidələri ilə birlikdə şəhid xiyabanları da ziyarət edilir. Həm vətən müharibəsində, həm də Qarabağ uğrunda gedən döyüşlərdə həlak olanların hamısı günəşli Azərbaycanın xoşbəxt gələcəyi uğrunda canlarını fəda etmişlər.

F. Heydərli

Görülmüş işlər arxayınlıq yaratmamalıdır

Bu günlər RİH Başçısı Yanında keçirilən növbəti şura iclasında "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprel ayının 10-da Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasından irəli gələn məsələlərin Ağstafa rayonunda həyata keçirilməsinə dair" məsələ müzakir olunmuşdur. Məsələ ilə əlaqədar RİH başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Aydın Hacıyev məruzə etmişdir. Məruzəçi qeyd etmişdir ki, 2015-ci ilin birinci rübü ərzində Ağstafa rayonu üzrə ümumi məhsul buraxılışının həcmi 18.4 milyon manat olmuşdur, bu ötən ilin eyni dövrü ilə müqayisədə 2.3 faiz çoxdur. Adambaşına düşən ümumi məhsul buraxılışının həcmi 1.1 faiz artmışdır. Cari ilin ötən dövrü ərzində kənd təsərrüfatı məhsullarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 6.5 faiz, sənaye məhsullarının həcmi 3.2 faiz, tikintidə 51.5 faiz, nəqliyyat xidmətində 5.3 faiz, rabitə xidmətində 5.2 faiz, ticarətdə 5.6 faiz, əsas kapitala yönəldilən investisiyaların həcmində 46.3 faiz artım olmuşdur. Rayon üzrə orta aylıq nominal əmək haqqı 1.1 faiz artaraq 242.00 manata çatdırılmışdır.

Cari ilin birinci rübü ərzində yerli gəlirlər üzrə proqnoz 110.1 faiz yerinə yetirilmiş, büdcənin xərcləri 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 122.9 min manat çox icra olunmuşdur. Büdcənin rüblük icrasında müxtəlif bölmə və maddələr üzrə artıq xərcə yol verilməmişdir. Lakin bəzi xərc maddələri üzrə rüblük proqnoza qarşı icra, orta icra faizindən yüksək olmuş, büdcə vəsaitinin tam xərclənməsi, proporsionallıq təmin olunmamışdır. Büdcəyə daxil olan vəsaitlər ilk növbədə əmək haqqına və ona bərabər tutulan xərclərə yönəldilmişdir.

DSMF-nin Ağstafa rayon şöbəsi 12161 nəfər pensiyaçıya xidmət edir. 2015-ci ilin birinci rübü ərzində 99 nəfərə əmək pensiyası təyin edilmişdir, bir nəfərə düşən orta aylıq pensiyanın məbləği rayon üzrə 155.55 manat təşkil edir. Rüb ərzində pensiyaların maliyyələşdirilməsinə 5.8 milyon manat vəsait xərclənmişdir. Nəzərinizə çatdırım ki, bu ilin yanvar-mart ayları ərzində pensiya və müavinətlərin vaxtında ödənilməsi təmin edilmişdir.

DSMF-nin Ağstafa rayon şöbəsi üzrə bu ilin birinci rübü ərzində məcburi dövlət sosial sığorta haqqı üzrə proqnoza 90.5 faiz əməl olunmuş və büdcə təşkilatları üzrə daxilolma 92.7 faiz, qeyri büdcə təşkilatları üzrə 81.2 faiz olmuşdur. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən toplanan proqnoz tapşırığa 70.6 faiz əməl olunmuşdur. Dövlət Sosial Müdafiə Fondunun Ağstafa rayon şöbəsinin rəhbərliyi proqnoz tapşırıqların yerinə yetirilməsi üçün ciddi tədbirlər görməlidir.

Ağstafa rayon ƏSMM-ndə 4230 nəfər sosial müavinət alan qeydə alınmışdır. Sosial məişət xidməti sektorunda 269 nəfər tənha və ahıl vətəndaşlar xidmət uçotuna götürülmüşdür. Rayon üzrə 5228 nəfərə, 1155 ailəyə ünvanlı sosial yardım verilir, hər ailəyə ödənilən yardımın məbləği 148.07 manat, adambaşına 32.71 manat təşkil edir. Aztəminatlı ailələrə müavinətlərin verilməsi, ünvanlı yardımların təyinatında şəffaflığın artırılması üçün tədbirlər görülməli, Mərkəzə müraciət edən hər bir vətəndaşa diqqət göstərilməlidir.

"Azərpoçt" MMC-nin Ağstafa Poçt filialı 2015-ci ilin birinci rübü plan proqnoz tapşırıqlarını 120.0 faiz yerinə yetirmişdir. Poçt filialı daxili imkanlar hesabına Aşağı Kəsəmən və Poylu kənd poçt şöbələrində cari təmir işləri aparılmışdır.

2015-ci ilin 3 ayı ərzində rayon ərazisində fəaliyyət göstərən banklar və bank olmayan kredit təşkilatları vasitəsilə əhaliyə cəmi 4.8 milyon manat kredit verilmişdir. Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına rayon üzrə sahibkarlıq subyektlərinə 19 layihə üzrə 232.0 min manat güzəştli kreditlər verilmişdir. 2015-ci il üçün Ağstafa rayon Ərazi Məşğulluq Proqramı hazırlanmışdır. Sosial müdafiəyə xüsusi ehtiyacı olanlar üçün 7 müəssisədə 10 kvot iş yerləri yaradılmışdır. 2015-ci ilin birinci rübü ərzində 54 nəfər işaxtaran kimi rayon Məşğulluq Mərkəzində qeydiyyata alınmış və 13 nəfər işlə təmin edilmişdir. Rüb ərzində 5 nəfərə işsiz statusu verilmiş və işsizlik müavinəti təyin edilmişdir.

Ağstafa rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. 2015-ci ilin məhsulu üçün 7960 hektar sahədə taxıl bitkisi səpilmişdir. Payızlıq və yazlıq bitkilərin əkilib-səpilməsində "Ağstafa Aqroservis" MMC-nin 59 ədəd və "Aqrolizinq" ASC-nin Ağstafa Aqroservis xidmətinin 72 ədəd müasir kənd təsərrüfatı texnikasından istifadə olunmuşdur. Bu da rayonda aqrotexniki xidmətlərin müasir standartlara uyğun qurulmasına, məhsuldarlığın artırılması və torpaq ehtiyatlarından daha səmərəli istifadəyə imkan yaradır.

Rayonun magistral və daxili yollarının kənarında 2014-cü ilin 4-cü rübündən başlayaraq bu günə kimi 6340 ədəd müxtəlif ağac tingləri əkilmişdir.

Meşə Mühafizə və Bərpası Müəssisəsi tərəfindən 2015-ci ilin 3 ayı ərzində 25 ha meşə əkini aparılmış və 46400 ədəd ting əkilmişdir. Meşələrin qorunması və mühafizəsi işi təşkil olunmasına baxmayaraq, Meşə Mühafizə və Bərpası Müəssisəsində və Qarayazı Dövlət Təbiət Qoruğunda ağacların qanunsuz kəsilməsinə az da olsa rast gəlmək olur.

Son iki ildə havaların quraqlıq keçməsi ilə əlaqədar Ağstafaçay dəryaçasında kifayət qədər su ehtiyatı yığılmadığından rayon ərazisində suvarma suyu ilə təminatda çox ciddi problemlər yaranmışdır. Hazırda su anbarında 60.0 milyon kub metrdə artıq suvarma suyu mövcuddur. Ağstafaçay Hidroqovşaq İstismar İdarəsi tərəfindən cari ilin 3 ayı ərzində selötürənlərin, suayrıcı qurğuların, dükkerlərin və beton kanalların xarab hissələrində əsaslı, hidrotexniki qurğuların, hidropostların, beton kanalların bir hissəsində cari təmir, eləcə də kanallarda lildən və kol-kosdan təmizlənmə işləri aparılmışdır. Sağ sahil kanalında mütəmadi təmir işləri aparılsa da, kanalın beton üzlüyündə çatlar əmələ gəldiyinə görə su itkisinə yol verilir.

Ağstafa Suvarma Sistemləri İdarəsi tərəfindən 2015-ci ilin birinci rübü ərzində Muğanlı nasos stansiyası və R-8 kanalında su bölüşdürücü qurğunun əsaslı təmiri, 10 ədəd hidrotexniki, 2 ədəd hidropost və 2 km kanalda cari təmir, kanalların lildən və kol-kosdan təmizlənməsi həyata keçirilmişdir. Kənd yaşayış məntəqələrində kanalların təmizlənməsi işlərinə bəzən biganəlik göstərilir, bu cür vəziyyət kanalların axıcılıq qabiliyyətini azaldır və nəticədə suvarma suyunda narazılıqlara səbəb olur. Göstərilən nöqsanların aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görülməlidir.

Ağstafa rayon Baytarlıq idarəsi tərəfindən rayon ərazisində mövcud olan bütün növ kənd təsərrüfatı heyvanları və quşları arasında müalicə və profilaktik tədbirləri həyata keçirilmiş və heç bir yoluxucu xəstəliklər qeydə alınmamışdır.

Şəxsi təsərrüfatlardan fərqli olaraq Dövlət mülkiyyətində saxlanılan müəssisələrdə M.Mikayılov adına DDKTİM MMC-də, Dilbaz atçılıq təsərrüfatında və Ağstafa Atçılıq zavodu MMC-də saxlanılan heyvanların baş sayı azalmaqda davam edir. Hər üç təsərrüfatda vəziyyət ürək açan deyil, göstəricilər aşagı olmaqla, dövlət müəsisələrinə olan borcların miqdarı artır, bu cür vəziyyət təsərrüfat rəhbərlərini ciddi narahat etməlidir. Adı qeyd olunan müəssisələrin idarəçilik formasının dəyişdirilməsinin vaxtı çatmışdır.

Təhsil nazirliyinin müvafiq əmrinə əsasən fənn olimpiadalarının rayon mərhələsi keçirilmişdir. 48 nəfər zona mərhələsində iştirak etmiş, şagirdlərdən 4 nəfəri respublika mərhələsində iştirak etmək hüququ qazanmışdır. 47-ci Beynəlxalq kimya olimpiadasının zona mərhələsində iştirak edən 8 nəfərdən biri respublika turunda iştirak etmişdir. Ağstafa rayonunun ümumtəhsil məktəblərində hərbi vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi, hərbi liseyə və ali hərbi məktəbinə şagirdlərin qəbulu məqsədilə təbliğat və təşviqat işlərinin aparılması, şagirdləri zabitlik peşəsinə həvəsləndirmək, onları milli ruhda tərbiyyə etmək məqsədilə Ağstafa rayonu İcra hakimiyyəti başçısının 01.04.2015-ci il tarixli Sərəncamı ilə tədbirlər planı təsdiqlənmişdir. Tədbirlər planının icrasının təmin olunması məqsədilə 04.04.2015-ci il tarixdə Heydər Əliyev Mərkəzində məktəb direktorlarının iştirakı ilə tədbir keçirilmiş və liseyə qəbul qaydaları izah olunmuşdur

2015-ci ilin birinci rübündə xəstəxanaya 498 nəfər xəstə daxil olmuşdur. Bunlardan 125 xəstə kəskin travmalarla daxil olmuşdur. Yol nəqliyyat qəzası nəticəsində 1 nəfər ölmüş, 11 nəfər xəsarət almışdır. Müayinə nəticəsində yeni 78 nəfərdə şəkərli diabeti, 9 nəfərdə vərəm, 3 nəfərdə xroniki böyrək çatışmazlığı aşkar olunmuşdur. Rüb ərzində 310 nəfər hamilə qadın qeydiyyata götürülmüşdür. Doğum şöbəsində əsaslı təmir aparılmış, Fizioterapiya şöbəsi üçün yeni bina əsaslı təmir olunmuş və avadanlıqlarla təchizatı həyata keçirilir. Rayon Mərkəzi Xəstəxanası tərəfindən imtiyazlı şəxslərin dərman peraparatları ilə müntəzəm təmin olunması nəzarətdə saxlanılmalı və bu kateqoriyadan olan insanlara diqqət və qayğı göstərilməlidir.

Ağstafa rayon GEM-də rüb ərzində müayinə zamanı 9 vərəm, 345 yuxarı tənəfüz yollarının kəskin infeksiyası və bir kəskin süst iflic qeydə alınmışdır. Qeyd olunmuş infeksion xəstələrin evlərində yekunlaşdırıcı dezinfeksiya aparılmışdır.

2015-ci ilin birinci rübündə millimədəni dəyərlərimizin qorunması, inkişaf etdirilməsi, uşaq və yeniyetmələrin musiqi biliklərinə yiyələnməsi, Azərbaycan və Dünya klassiklərinin, müasir ədəbi nümunələrin təbliği, tarix və mədəniyyət abidələrinin, məişətimizə aid qədim eksponatların qorunaraq gələcək nəsillərə çatdırılması istiqamətində bir sıra işlər görülmüşdür.

Hesabat dövründə 18 adda müxtəlif səpkili tədbirlər keçirilmişdir.

Yeniyetmə və Gənclər arasında vətənpərvərlik işinin yüksəldilməsi, vətənə məhəbbət hissinin artırılması məqsədilə ümumtəhsil məktəblərində hərbi idman oyunlarının rayon mərhələsinə start verilmişdir. Yeniyetmə və Gənclər arasında vətənpərvərlik işinin yüksəldilməsi, vətənə məhəbbət hissinin artırılması məqsədilə tədbirlərin keçirilməsi işində Gənclər və İdman İdarəsi məsuliyyətini artırmalıdır.

2015-ci ilin birinci rübündə Ağstafa rayonunda abadlıq-quruculuq və təmir-tikinti sahəsində sürətli inkişaf təmin edilmişdir. Ağstafa şəhərinin içməli su təminatının yaxşılaşdırılması və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin həyata keçirilməsinə 2010-cu ildən başlanılmışdır. Hazırda şəhərin içməli su təminatının yeni layihə əsasında həyata keçirilməsinə baxmayaraq çoxmənzilli və çoxmərtəbəli yaşayış binalarının içməli su təminatı həll olunmamş qalır ki, bu da yaşayış binalarının sakinləri arasında narahatçılığa səbəb olur.

Ağstafa şəhərinin abadlaşdırılması küçə və meydanların yenidən qurulması ön plana şəkilmişdir. N.Nərimanov, S. Ağamalıoğlu, R.Əsədov küçələri yenidən qurulmuş, C.Cabbarlı, E.Qələmçəli və Nüsrət Kəsəmənli küçələrində abadlıq-yenidənqurma işlərinə başlanılmışdır. Lakin, bununla yanaşı abadlıq sahəsində cari ildə yerinə yetirilməli işlər çoxdur. Ağstafa şəhər 350 şagird yerlik Musiq və İncəsənət Mərkəzinin, Ağstafa şəhərində 5 saylı, Dağ Kəsəmən kəndində 1 saylı uşaq bağçası-körpələr evinin tikintisi davam etdirilmişdir. Hazırda Poylu kəndində 55 yerlik uşaq bağçası-körpələr evinin tikintisinin layihə sənədlərinin hazırlanması başa çatmaq üzrədir. Rayon Mədəniyyət evinin əsaslı təmiri və yenidən qurulması işləri davam etdirilir.

Rayon mərkəzinin abadlaşdırılması ilə yanaşı rayonun qəsəbə və kəndlərində də abadlıq, tikinti-quruculuq işləri genişləndirilməlidir. Bu sahədə yerli icra nümayəndəlikləri ilə bələdiyyə orqanlarının üzərinə böyük vəzifələr düşür.

Əhalinin təbii qaz yanacağı ilə təmin edilməsində müəyyən işlər görülsə də problemlər də mövcuddur. Ağstafa şəhərində, kənd və qəsəbələrdə son 20 ildə salınmış məhəllələrin qazlaşdırılmasına başlanılmamışdır. Hazırda kür çayının sol sahil yaşayış məntəqələrinin qazlaşdırılması üçün daşıyıcı qaz xəttinin çəkilişi davam edir.

Əhalinin elektrik enerjisi ilə təminatında hesabat dövründə bir sıra işlər görülmüş, sıradan çıxmış transformatorlar bərpa edilmiş 10, 6 və 04 kv elektrik xətlərində cari təmir işləri aparılmış, çürük dayaqlar yenisi ilə əvəz edilmişdir. Lakin rayonun elektrik təsərrüfatı 1950-ci illərdə qurulduğundan rekonstruksiya olunmasına ciddi ehtiyac vardır.

Yol infrastrukturunun yaxşılaşdırılması sahəsində müəyyən işlər görülsə də problemlər mövcuddur. Cari ildə Vurğun-Köçəsgər-Qırılı, Vurğun-Köhnəqışlaq, Ağstafa-Aşağı Kəsəmən, Zəlimxan, Köçvəlili-Qarayazı-H.Aslanov avtomobil yollarının əsaslı təmiri ilə əlaqədar tədbirlər görülməli, Ağstafaçay çayının üzərindəki qəzalı körpünün, Kür çayı üzərindəki və Acı dərədəki avtomobil körpülərinin Ağstafa şəhərindəki yol ötürücünün tikintisi, Köhnəqışlaq kəndində Həsənsu çayının üzərindəki avtomobil körpüsünün əsaslı təmiri üçün tədbirlər görülməlidir.

2015-ci ilin ötən dövrü ərzində rabitə sisteminin yaxşılaşdırılması sahəsində ciddi addımlar atılmışdır. Cari ilin ötən dövrü ərzində 176,2 min manatlıq rabitə xidməti göstərilmiş, Köhnəqışlaq, Xılxına, Qarahəsənli, Mollacəfərli kəndlərinin telefon və internetə olan tələbatları yerinə yetirilmiş, 338 abonentə internet verilmiş, 46 abonentə telefon çəkilmişdir. Lakin, şəhər ərazisindəki rabitə xətləri və dayaqları xaotik olaraq qalmaqdadır.

Təbii fəlakət törədə biləcək hadisələrin qarşısının alınması məqsədi ilə ilin əvvəlində sel sularının, uçqunların və qrunt sularının qarşısının alınması məqsədi ilə aidiyyəti qurumlar qarşısında məsələ qaldırılmışdır. Uzun illər sel sularından əziyyət çəkən Dağ Kəsəmən kəndində fərdi və ictimai tikililərə, fərdi təsərrüfatlara külli miqdarda ziyan dəymişdir. Təhlükənin qarşısının alınması məqsədi ilə ötən il mühafizə bəndlərinin tikintisinə başlanılmış və hazırda davam etdirilir. Cari ildə Saloğlu, Köçəsgər kəndlərində uçqunların qarşısının alınması, Tatlı kəndində qurunt sularının aradan qaldırılması üçün yeraltı və yerüstü drenaj şəbəkələrinin tikintisinə nail olunmalı, rayon ərazisindən keçən Həsənsu, Ağstafaçay və Kür çaylarında sahilbərkitmə işləri davam etdirilməlidir.

Rayonun çoxmənzilli yaşayış binalarının, məktəb və bağçaların istilik sistemi ilə təchizatı sahəsində ötən il müəyyən işlər görülsə də cari ildə həlli vacib olan problemlər təhlil edilməli və aradan qaldırılmalıdır.

2015-ci ilin birinci rübü ərzində Ağstafa rayonu İcra hakimiyyəti başçısının aparatına vətəndaşların 227 müraciəti daxil olmuş, rayon İcra hakimiyyəti tərəfindən 2360 nəfər vətəndaş qəbul edilmiş, yerlərdə 5 səyyar qəbulları keçirilmiş, həmin görüşlərdə 986 nəfər iştirak etmiş, 51 təklif irəli sürülmüşdür. Qaldırılan problem və təkliflərin 30-u həll olunmuş, 6-sının icrası davam etdirilir, 15 təklifin icrası növbəti aylarda nəzərdə tutulur.

Şəhər, qəsəbə və kəndlərdə bəzi həlli vacib olan kiçik problemlər vardır ki, həmin problemləri əhalinin güçü ilə həll etmək mümkündür. Lakin, nümayəndəliklərin və yerli bələdiyyələrin bu sahədə işləri günün tələbləri səviyyəsində deyil. Ağstafa rayon İcra hakimiyyəti başçısının yerlərdə səyyar görüşləri və qəbullarının zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin əksəriyyətinin yerlərdə nümayəndəliklərin və yerli bələdiyyələrin təşkilatçılığı ilə aradan qaldırılması mümkündür. Nəticədə yerlərdən rayon İcra hakimiyyətinə və digər orqanlara daxil olan ərizə və şikayətlərin sayı artır. Bu kimi halların aradan qaldırılması üçün tədbirlər görülməlidir.

* * *

Məruzə şura iclasında geniş müzakirə olundu və çıxışlarda irəli sürülən təkliflər nəzərə alınaraq geniş qərar qəbul edildi.

“Qazax-Borçalı xalçaları” kitabının təqdimatı

Azərbaycan xalçaları xalqımızın böyük tarixi nailiyyəti, milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsidir. Tariximiz qədər qədim sənət sahələrindən biri olan xalçaçılıq təkcə ölkə daxilində deyil, dünya miqyasında yayılaraq ümumbəşəri dəyərə, xalqın beynəlxalq aləmdə milli vəsiqəsinə, özünü tanıtma nişanına çevrilmişdir. Azərbaycanın Bakı, İrəvan, Şirvan, Naxçıvan, Qarabağ, Qazax-Borçalı, Təbriz, Quba, Gəncə kimi xalçaçılıq məktəbləri, onların tarixi, ənənələri, özünəməxsus komposiziya-ornament quruluşu, rəng həlli müasir elmi standartlara müvafiq, əsaslı tədqiqatlara cəlb edilmişdir.

İncəsənət sərhəd tanımır, qadağaları qəbul etmir. Bütün dünyanı heyran qoyan sənət əsərləri ən böyük imperiyaların sərhədlərini belə aşaraq bəşəriyyətin nadir incisinə, ən qiymətli dəyərinə çevrilə bilir. Azərbaycan xalçaları da məhz belə qiymətli sənət incilərindəndir. Bu gün Azərbaycan xalçalarının Qazax-Borçalı qrupunda geniş tədqiqata cəlb olunan xalça və xalça məmulatları da bu sərhədsizliyin, milli, tarixi və mədəni vəhdətin daşıyıcısıdır. Hazırda Qazaxda, Tovuzda, Ağstafada, eləcə də Borçalı mahalında toxunan xalçalar bir ocaqdan pərvazlanan ağbirçək nənələrin, əlləri qızıl kəsən anaların, qız və gəlinlərin qiymətli əl işləri, düşüncə, arzu və istəklərinin, dünyagörüşünün məhsuludur. Qazax-Borçalı bölgəsinin tarixi sərhədləri, mövcud vahidliyi pozulsa da, bu ellərin xalçaları sosial-iqtisadi və mədəni rolunu qoruyub saxlaya bilmişdir.

Bu bölgələrdə aparılan gərgin axtarış və tədqiqatlardan sonra “Qazax-Borçalı xalçaları” kitabı kimi xalçaçılıq sənətimizin tarixinə və bu günkü vəziyyətinə dair çox qiymətli bir elmi-tədqiqat əsəri meydana gəlmişdir. Bu günlərdə Ağstafa “Yazıçılar evi”ndə “Qazax-Borçalı kitabı”nın təqdimat mərasimi keçirilmişdir. Mərasimə rayonumuzun ziyalıları, hazırda şəhər və kəndlərimizdə yaşayan xalça ustaları toplaşmışdılar.

Təqdimat mərasimini giriş sözü ilə Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev açmışdır. O, qeyd etmişdir ki, qədim xalq sənətkarlığı kimi xalçaçılığın tarixi çox qədimdir. Xalça xalqı, milləti tanıdan, öz müəllifini özü ilə daim yaşadan, soykökümüzə dərindən bağlı olan milli sənət məşğuliyyəti kimi uzun illər el-obada yayılmış, xalqımıza şöhrət gətirmişdir. Bu günkü təqdimatın Ağstafada keçirilməsi də təsadüfi deyildir. Qədim xalq sənəti olan xalçaçılıq uzun illər Ağstafa qadınlarının da ən sevimli məşğuliyyəti olmuşdur. Son illər bu qədim xalq sənətinə diqqət azalsa da xalq öz milli adət-ənənsini qoruyub saxlamışdır. Bu gün keçirilən təqdimat mərasimi tariximizə, soykökümüzə daha dərindən yiyələnmək, milli adət-ənənələrimizə daha yaxından bələd olmaq üçün çox əhəmiyyətlidir.

Mərasim Azərbaycanda xalçaçılıq sənətinin tarixindən, Qazax-Borçalı bölgəsində bu xalq sənətinin inkişafından bəhs edən maraqlı filmin nümayişi ilə başlandı. Filmdə təsvir olunan qədim xalça nümunələri, Qazax və Borçalı mahallarında, eləcə də Ağstafa rayonunda yaşamış və bu gün də yaşayan xalça ustalarının əl işləri tədbir iştirakçılarının marağına səbəb oldu.

Filmin nümayişindən sonra “Azər-ilmə” MMC İstehsalat Birliyinin direktoru, Azərbaycanın Əməkdar İncəsənət xadimi, professor Vidadi Muradov çıxış etmişdir. O, Azərbaycan xalçalarının tarixindən bəhs edərək son illər bu sahədə aparılan tədqiqat işlərindən danışmışdır. Qeyd etmişdir ki, milli xalçaçılıq sənətimizin Qazax-Borçalı qrupu Azərbaycan xalçalarının qədim qruplarına aiddir. Bu xalçalar indiyə qədər öz naxışlarını, tarixliyini və milli kaloritini qoruyub saxlaya bilmişdir. Ağstafa xalçaları da bu qrupun içərisində xüsusi yer tutur. Bizim bu bölgədə apardığımız tədqiqat işləri çox gözəl bəhrə vermişdir. Təqdimatına toplaşdığımız və kitabın meydana gəlməsi də həmin tədqiqatın sevindirici nəticəsidir.

Mərasimdə iştirak edən Milli Məclisin üzvü akademik Nizami Cəfərov bir neçə il əvvəl milli xalçaçılıq sənətinin diqqətdən kənarda qaldığını qeyd etmişdir. Respublikamız ikinci dəfə öz müstəqilliyini bərpa etdikdən sonra ümummilli liderimiz Heydər Əliyevin ciddi səyi nəticəsində xalçaçılığa dövlət qayğısı artırılmış, “Azər-ilmə” MMC yaradılmışdır. Xalçaçılıq sənətinə diqqət və qayğı bu gün də hörmətli prezidentimiz İlham Əliyev və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun preizdenti Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan xalçaları YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir.

Təqdimat mərasimində Azərbaycanın Əməkdar xalçaçısı, professor Kubra Əliyeva, Qazax rayon icra hakimiyyətinin müavini Gülayə Əliyeva, rayonun Poylu kəndindən gəlmiş xalça ustası Mahirə Qədimova da çıxış edərək xalçaçılığın tarixindən, Ağstafa xalçaçılarının dünya şöhrətindən danışmışlar. Rayon Ağsaqqallar Şurasının sədri F. Heydərli mərasimdə çıxış edərək belə bir mötəbər tədbirin rayonumuzda belə bir gözəl məkanda keçirilməsi üçün “Azər-ilmə” MMC-nin rəhbərliyinə, “Qazax-Borçalı xalçaları” kitabının müəllifi professor Vidadi Muradova, bu kitabının təqdimatının yüksək səviyyədə keçirilməsinin təşkilinə görə rayon rəhbərliyinə dərin minnətdarlığını bildirmişdir.

Mərasimin sonunda “Qazax-Borçalı xalçaları” kitabının müəllifi Vidadi Muradova Rayon icra hakimiyyətinin başçısının fəxri fərmanı təqdim edilmişdir. Mərasimdə həmçinin İ. Həsənovun və Q. Ərəbovun ifasında saz havaları dinlənilmişdir.

Maraqlı görüş

Respublika “Bilik fondu” Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə birlikdə Azərbaycan ərazisində ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri arasında “Yazmağı bacarırıq” layihəsi həyata keçirir. Bununla əlaqədar Rayon təhsil şöbəsinin iclas zalında maraqlı görüş keçirilmişdir. Görüşə qabaqcıl təhsil ocaqlarının təcrübəli müəllimləri ilə yanaşı Ağstafa şəhər 1 saylı orta məktəbinin yuxarı sinif şagirdləri də dəvət olunmuşdular.

Rayon təhsil şöbəsinin müdiri Fərhad Vəliyev giriş sözü ilə görüşü açaraq, belə bir tədbirin ali məktəblərə hazırlaşan şagirdlərin marağına səbəb olduğunu vurğuladı. Qeyd etdi ki, “Yazmağı bacarırıq” layihəsinin həyata keçirilməsi məqsədi ilə aparılan bu tədbir əsasən jurnalistlik peşəsinə meyli olan şagirdlərə metodiki kömək kimi qiymətləndirilir. Bunda əsas məqsəd Bakı Dövlət Universitetinin jurnalistika fakultəsinə şagirdlərin marağını artırmaq, bu sahədə onlara hər cür kömək göstərmək və təlimatlandırmaqdır.

Ağstafa şəhər 1 saylı orta məktəbin direktoru Leyla İsayeva bildirmişdir ki, bu layihəyə ilk qoşulanlardan biri bizim pedaqoji kollektiv olmuşdur. Çünki mən özüm “Bilik fondu”nun üzvüyəm və bu fondun həyata keçirdiyi bütün tədbirlərdən xəbərdaram. Mən qərara gəldim ki, biz məktəbimizdə “Yazmağı bacarırıq” devizi altında keçirilən bütün müsabiqələrdə iştirak edə və layiqli yerlər tuta bilərik. Ona görə də Bakı Dövlət Universiteti jurnalistika fakultəsinin dekan müavini, fəlsəfə doktoru Sevinc xanım Əliyevanı məktəblilərlə görüşə dəvət etdik. Çox sağ olsun ki, o da bizim təklifimizi məmnuniyyətlə qəbul etdi və bu müsabiqədə istedadlı şagirdlərimizə yardımçı olacağını bildirdi.

Görüşdə iştirak edən qocaman jurnalist Firdovsi Heydərli bu peşənin incəliklərindən, jurnalistlik sənətinin üstünlüklərindən, bu sahədə çalışanların şərəf və ləyaqətindən geniş söhbət açdı. O, həmçinin bu peşəyə yiyələnmək istəyən yeniyetmələrə dəyərli tövsiyələr verdi.

Sonra Bakı Dövlət Universitetinin jurnalistika fakultəsi dekanının müavini Sevinc Əliyeva çıxış etdi. O, qeyd etdi ki, Ağstafa rayonunda jurnalistika ixtisasına maraq göstərən şagirdlərimiz azdır. Bu da onunla nəticələnir ki, bu işə səriştəsi olmayan təsadüfi adamlar soxulur, onlar da öz bildikləri, qabiliyyət və bacarıqları çərçivəsində fəaliyyət göstərə bilirlər. Nəticədə isə təsadüfi adamların günahı üzündən jurnalistika sənətinin hörmət və izzətinə xələl gəlir. Ona görə də bizim həyata keçirdiyimiz layihədə daha bacarıqlı, istedadlı vətənpərvər gənclərin jurnalistika fakultəsinə cəlb edilməsi nəzərdə tutulur.

Sevinc Əliyeva yuxarı sinif şagirdlərinə lazımi məsləhətlər verdi, onları ümumi qəbul imtahanlarından əlavə qabiliyyət imtahanları barədə də məlumatlandırdı. Bundan əlavə bu sahəyə marağı olan abituriyentlərə həmişə metodiki kömək göstəriləcəyini bildirdi.

Rayon təhsil şöbəsinin müdiri Fərhad Vəliyev görüşün sonunda “Bilik fondu”nun üzvü, Bakı Dövlət Universitetinin dosenti Sevinc Əliyevaya, görüşdə iştirak edən bütün qonaqlara minnətdarlığını bildirdi, yuxarı sinif şagirdlərinə gələcək həyatlarında müvəffəqiyyətlər arzuladı.

Bizim Nəbi müəllim

Haqqında söhbət açacağım şəxs öz davranışı, qabiliyyəti və əmək fəaliyyəti ilə yaşadığı kənddə böyük nüfuz qazanmış, Ağstafa ictimaiyyəti tərəfindən yaxşı tanınan Muğanlı kənd inzibati ərazi dairəsinin nümayəndəsi Nəbi Mürsəqulu oğlu Mürsəquliyevdir. El arasında ona sadəcə olaraq Nəbi müəllim deyə müraciət edirlər. N. Mürsəquliyev 1956-cı ildə yaşadığı kənddə doğulmuş, elə orada orta məktəbi bitirmiş, sonra isə kəndin əksər gəncləri kimi, o da ali məktəbə üz tutmuşdur. 1976-cı ildə Gəncə Pedaqoji İnstitutunu müvəffəqiyyətlə bitirən N. Mürsəquliyev təyinatla bir il Salyan rayonunda müəllim işləmiş və sonra doğma kəndinə qayıtmış, Muğanlı kənd orta məktəbində ixtisası üzrə dil-ədəbiyyat müəllimi işləmişdir.

Gənc müəllim öz fəaliyyəti ilə qısa müddətdə məktəbin pedaqoji kollektivi və ictimaiyyət arasında böyük hörmət qazanmış, bütün bu məziyyətlərinə görə 1985-ci ildə Muğanlı kənd sovetinin deputatı seçilmişdir. Elə həmin il ona yüksək etimad göstərilmiş, kənd sovetinin katibi vəzifəsinə irəli çəkilmiş və 10 il həmin vəzifədə çalışmışdır. 1995-ci ildən hal-hazıradək isə kənd sovetinin sədri, icra nümayəndəsi işləyir.

Nəbi haqqında deməyə sözüm çoxdur. Onun əmək fəaliyyəti çoxları kimi mənə də yaxşı bəllidir. Lakin istərdim ki, onun barəsində həmkəndliləri öz fikirlərini söyləsinlər və mən də deyilənləri qələmə alıb, Ağstafa ictimaiyyətinə çatdırım.

Elə həmin məqsədlə bu günlər Muğanlı kəndinə üz tutdum və kəndin seçilib-sayılan ağsaqqallarından biri olan, Muğanlı kənd orta məktəbinin müəllimi Fəxrəddin Səfiyevlə görüşüb söhbət etdim. Nəbi müəllim haqqında danışmağı F. Səfiyevdən xahiş edəndə o, çox məmnun oldu və böyük fərəh hissi ilə söhbətə başlayaraq dedi:

-Nəbi müəllim barəsində kəndimizdə hamı danışa bilər. Lakin mən deyərdim ki, kəndimizdə bizim Nəbi müəllim haqqında daha çox məlumatı olan mənəm və onun əmək fəaliyyəti, iş qabiliyyəti barədə ətraflı məlumatım var.

Gənclik illərində Nəbi Mürsəquliyevlə Muğanlı kənd orta məktəbində bir yerdə müəllim işləmişəm. Həmin dövrdə ona yüksək etimad göstərilib kənd sovetində işləmək təklif ediləndə çox tərəddüd edirdi. O, bu barədə mənimlə məsləhətləşəndə mən tərəddüd etmədən göstərilən etimadı səmimi qəbul etməyi ona məsləhət gördüm. Nəbi müəllim mənim məsləhətimi səmimi qəbul etdi və 1985-ci ildən hal-hazıradək indiki icra nümayəndəliyində çalışır.

O vaxtdan N. Mürsəquliyevlə dostluq edir, həmfikir oluruq. İşlədiyimiz dövrdə çətin anlar çox olub. Həmişə bir-birimizlə məsləhətləşmiş və müəyyən bir işi görəndə xeyli götür-qoy etdikdən sonra qətiyyətli addımlar atmışıq.

Ən çətin anlarımızdan birini misal göstərmək istərdim. 1992-ci ildə respublikamızda yaranmış abhava hamıya yaxşı məlumdur. Azərbaycanda hakimiyyət uğrunda gedən mübarizə çoxlarını çaş-baş salmışdı. Həmin dövrdə ulu öndər Heydər Əliyev Azərbaycana qayıtdıqdan sonra bütün işlər qaydasına düşməyə başladı. Naxçıvanda, eləcə də respublikamızın bütün bölgələrində olduğu kimi, Ağstafada da Yeni Azərbaycan Partiyası yaradıldı. Mən Nəbi müəllimlə məsləhətləşib bu partiyaya üzv qəbul olunduqdan sonra kəndimizdə Yeni Azərbaycan Partiyasının ilk təşkilatını yaratdıq. Bu gün fəxrlə deyə bilərik ki, biz Muğanlı kəndində hakim partiyanın yaradıcılarıyıq.

Nəbi Mürsəquliyev öz fəaliyyəti dövründə çalışmışdır ki, kənd camaatının arzu və təkliflərinin yerinə yetirilməsini, problemlərinin həll edilməsini təmin etsin. Onun ən yaddaqalan işlərindən biri və mən deyərdim ki, ən sanballısı Gürcüstan Respublikasının Qardabani rayon istilik elektrik stansiyasından çıxan suyun bir qisminin kanal vasitəsilə Sadıxlı və Muğanlı kəndlərinə gətirilməsi olmuşdur. Mən özüm də bu işin içində olmuş və Nəbi müəllimin bu problemin həllində çox böyük əziyyətlər çəkdiyinin şahidi olmuşam. Nəbi müəllim bu gün də həmin kanalın daha da genişləndirilməsi uğrunda çalışır və əlaqədar təşkilatlar qarşısında məsələ qaldırır.

Kəndin bu kimi problemlərinin həll edilməsində el-obanın imkanlı adamları ilə daha yaxından əlaqə saxlamağa üstünlük verən N. Mürsəquliyev həmin şəxslərlə tez-tez görüşür və öz təkliflərini onlara bildirir. Elə Muğanlı kənd xəstəxanasının təmir olunmasında, kənd qəbiristanlığının hasarlanmasında Bakı şəhərində yaşayan Vidadi Babanlının, Qasım Abdullayevin əməyini danmaq mümkün deyildir.

Bəli, Nəbi Mürsəquliyev təkcə ötən illər üçün yox, həm də gələcək illər üçün yaddaqalan işlər görməyə çalışır. Bu gün onu narahat edən məsələlərdən biri də kəndin yaxınlığında yerləşən Ağ göldən çıxan ana kanalın və təsərrüfatdaxili arxların betonlaşdırılması işidir. Əgər bu problem həll edilərsə, kənddə təsərrüfatla məşğul olan vətəndaşların torpaq sahələrinin suvarılmasında olan çətinliklər tam aradan qaldırıla bilər.

N. Mürsəquliyevin ən üstün cəhətlərindən biri onun bu günkü hakim partiyaya sədaqətlə xidmət etməsidir. Nəbi müəllim bu yolda heç nədən çəkinmir, bu günkü hakimiyyətin əleyhinə fikirlər söyləyən, ona qarşı çıxan vətəndaşlara heç nədən, heç kimdən çəkinmədən öz sözünü deyə bilir.

N. Mürsəquliyev onunla görüş zamanı kəndin bəzi problemlərindən söhbət açaraq bildirdi ki, kənddə uşaq bağçasının olmaması onu çox narahat edir. Bununla bağlı əlaqədar təşkilatlar qarşısında məsələ qaldırmışdır. Kəndin mavi yanacaqla tam təmin olunması isə yaxın vaxtlarda öz müvəffəqiyyətli həllini tapacaqdır.

Nəbi Mürsəquliyevin əmək fəaliyyəti heç vaxt rayon rəhbərliyinin diqqətindən yayınmamış və onun işi həmişə yüksək qiymətləndirilmişdir. Keçən il N. Mürsəquliyevə Ağstafa rayon İcra Hakimiyyətinin fəxri fərmanı verilmiş və bu mükafat onu daha yaxşı işləməyə, öz vəzifə borcunu ləyaqətlə yerinə yetirməyə ruhlandırmışdı.

İbrahim Əliyev

"Əlifba" bayramı

Artıq ümumtəhsil məktəblərində cari dərs ili sona yaxınlaşmaq üzrədir. Məktəbə ilk dəfə qədəm qoyan birincilərin də sevincinin həddi-hüdudu yoxdur. Axı, onlar "Əlifba" kitabındakı bütün hərfləri düzgün yazmağı və oxumağı öyrənmişlər. Ənənəyə görə "Əlifba" kitabını oxuyub başa çıxdıqdan sonra birincilər öz sevinclərini "Əlifba" bayramı ilə qeyd edirlər.

Ənənəyə uyğun olaraq bu günlərdə Ağstafa şəhər 1 saylı tam orta məktəbində Ib sinif şagirdlərinin "Əlifba" bayramı keçirilmişdir. Məktəbin akt zalında keçirilən bayrama məktəbin müəllimləri, valideynlər və qonaqlar toplaşmışdılar. Xüsusi geyimlərində, gül kimi açılmış çöhrələrində sevinc və fərəh hissi olan balaca qız və oğlanlar bayrama xüsusi hazırlaşmışdılar.

Bayrama doğma Azərbaycanın Dövlət himninin ifası ilə başlayan balaca fidanlar tərtib olunmuş proqram əsasında müxtəlif şeirlər söylədilər, mahnılar oxudular və şən rəqs etdilər. Onların hazırladıqları kiçik səhnəciklər, cizgi filmlərindən fraqmentlər buraya toplaşanlar tərəfindən maraqla qarşılanmışdır. Şagirdlərin ifasında "Vals" rəqsi, "Qaragöz" özbək mahnısı, "Tık-tık xanım" cizgi filmindən fraqment hamı tərəfindən alqışlanmışdır.

Maraqlı keçən tədbirin alqışlarla qarşılanması göstərmişdir ki, sinif müəllimi Sevinc Əhmədovanın zəhməti hədər getməmişdir. Şagirdlərin geyimindən tutmuş, bütün proqramın hazırlanmasını, həyata keçirilməsini sinif müəllimi özü təşkil etmişdi. Şübhəsiz ki, bu işdə onun ən yaxın rəfiqələri, məktəbin müəllimələri Gülnarə Əhmədova və Yeganə Alcanova ona yaxından kömək göstərmişlər. Bundan əlavə "Əlifba" bayramının bu cür təntənəli və yaddaqalan keçirilməsində valideynlər də Sevinc müəlliməyə ən yaxın yardımçı olmuşlar.

Həmin gün məktəbdə keçirilən "Əlifba" bayramının sevinci həm şagirdlərin, həm müəllimlərin, həm də valideynlərin xoş ovqatını qat-qat artırmışdır. Bayramın sonunda məktəbin direktoru Leyla İsayeva çıxış edərək bu günkü təntənəli bayram üçün onun təşkilatçılarına, xüsusilə də sinif müəllimi Sevinc Əhmədovaya, bu işdə iştirakçı olan bütün müəllimlərə təşəkkürünü bildirmişdir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Ağstafa Rayon Statistika İdarəsinin Keyfiyyət sahəsində siyasəti

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin keyfiyyət sahəsində olan siyasəti ilə müəyyənləşdirilmiş prinsip və istiqamətlərə əsaslanaraq, Ağstafa Rayon Statistika İdarəsi (Ağstafa RSİ) statistika xidmətlərinin daim yaxşılaşdırılması məqsədi ilə keyfiyyət standartlarının tətbiqinə nail olmaq üçün aşağıda göstərilənləri elan edir.

Ağstafa RSİ-nin Keyfiyyət sahəsində siyasəti aşağıdakılardan ibarətdir:

- Dövlətstatkom tərəfindən statistika sisteminin təşkili və onun fəaliyyətinin təmin olunması ilə bağlı müəyyən olunmuş bütün tələblərin icrasının təmin edilməsi;
- İstifadəçilərin keyfiyyətli statistik məlumatlara olan tələbatlarının maksimal dərəcədə təmin edilməsi;
- Qarşıda duran strateji vəzifə və hədəflərə nail olunması məqsədi ilə Ağstafa RSİ-nin fəaliyyətinin modernləşdirilməsi və davamlı inkişafının təmin edilməsi;
- Keyfiyyətli idarəetmə sisteminin qurulması və davamlı olaraq yaxşılaşdırılması, tənzimləmə və idarəetmənin müvafiq standartlar əsasında aparılması;
- İstifadəçilərin statistik göstəricilərdən və digər zəruri məlumatlardan istifadəsi üçün hərtərəfli imkanın yaradılması, kütləvi informasiya vasitələrində çıxışların davamlılığı;
- Ağstafa RSİ-nin fəaliyyətinin müvafiq tələblərə uyğunlaşdırılması və rəqabət gücünün artırılması məqsədilə kadrların xidməti və peşəkarlıq səviyyəsinin artırılması, onların müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsi;
- Ağstafa RSİ-nin idarəetmə fəaliyyətinin keyfiyyətin idarəetmə sisteminin tələblərinə uyğun şəkildə qurulması, işlək vəziyyətdə saxlanılması və daimi inkişafının təmin edilməsi.

Ağstafa RSİ-nin keyfiyyət sahəsində siyasətinin reallaşdırılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

- Dövlətstatkom tərəfindən müəyyən olunmuş metodologiyanın Ağstafa RSİ-nin işində tətbiqi;
- statistik məhsulların keyfiyyətinə zəmanət verilməsi üçün statistika sisteminin Dövlət Statistika Komitəsi tərəfindən qəbul olunmuş vahid standartlar və uyğunlaşdırılmış metodlar əsasında təkmilləşdirilməsi;
- kənar istifadəçilərin statistik məlumatlarla təminatının bütün mümkün üsul və vasitələrlə (nəşrlərin siyahısının və məzmunlarının, məlumatların keyfiyyətinin, məlumatların yayılması formatlarının və s. təkmilləşdirilməsi) yüksəldilməsi;
- ilkin statistik məlumatların məxfiliyinin təmin edilməsi;
- statistik proseslərin keyfiyyətinin yüksəldilməsi;
- daxili istifadəçilərin məlumatlarla təmin edilməsinin Ağstafa RSİ-də qarşılıqlı əlaqələrin yaxşılaşdırılması yolu ilə yüksəldilməsi;
- hər bir prosesin planlaşdırılmış nəticələrinin səmərəli alınması üçün fəaliyyətin və resursların idarə edilməsində prosesli yanaşmanın hazırlanması və ondan istifadə edilməsi;
- Keyfiyyətin idarə olunması sahəsində yeni biliklərin əldə olunaraq öyrənilməsi..

Ağstafa RSİ-nin rəhbərliyi həmişə çalışır ki, bütün işçi heyəti:

- cari dövr üçün keyfiyyət sahəsində siyasəti və məqsədləri bilsin;
- zəruri peşəkar hazırlığı əldə edə bilsin;
- keyfiyyətli metodoloji və təlimatlandırıcı sənədlərə malik olsun;
- işlərin keyfiyyətlə yerinə yetirilməsi üçün zəruri olan proqram vasitələri, kompyuter texnikası və digər zəruri vasitələrlə təmin edilmiş olsun;
- öz əlaqələrini səmimilik, etibarlılıq, problemlərin birgə həll edilməsi prinsipi əsasında qursun;
- rəhbərlik tərəfindən müəyyənləşdirilmiş bütün cari tapşırıqları vaxtlı-vaxtında keyfiyyətlə yerinə yetirsin;
- keyfiyyət sahəsində olan mövcud biliyi yeniləsin və mütərəqqi olsun.

Ağstafa RSİ-nin rəhbərliyi qeyd edilmiş prinsiplərə şərtsiz əməl edir və keyfiyyətin idarə edilməsi sisteminin təhlil edilməsi və səmərəliliyinin daim artırılması üçün məsuliyyət daşıyır.

Bu bizik

Mənim rəhbərlik etdiyim Uşaq Yaradıcılıq Mərkəzi 1956-cı ildən fəaliyyət göstərir. Əvvəllər mərkəzin adı "Pionerlər evi" olmuş, sonralar isə mərkəzə məktəbdən kənar müəssisə adı verilmişdir.

Müəssisədə günün tələblərinə cavab verən dərnəklər fəaliyyət göstərir. Müəssisəmizdə lazımi imkan və şərait olmadığına görə həmin dərnəklər ümumtəhsil məktəblərində də təşkil edilmişdir. Burada əsas məqsəd rayonumuzda olan istedadlı uşaqları üzə çıxarmaqdan ibarətdir. Müəssisəmizdə çalışan müəllimlərin başlıca işi isə həmin şagirdlərin qabiliyyətini üzə çıxarmaqdan və onları yaşıdlarına, eləcə də respublika səviyyəsində tanıtmaqdan ibarətdir.

Qeyd etmək istərdim ki, bu istiqamətdə bizim xeyli uğurlarımız olmuşdur. Təkcə son üç ildə respublika səviyyəli müsabiqələrdə yeddi ədəd sertifikat, fəxri fərman, 4 ədəd birinci dərəcəli, 1 ədəd üçüncü dərəcəli diplomlara layiq görülmüşük. Həmin diplomlardan biri Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş "Fövqəladə hallar uşaqların gözü ilə" uşaq yaradıcılıq müsabiqəsində, yanğın və qəza-xilasetmə texnikasının modeli naminasiyası üzrə Şəhla Yusifovanın qazandığı nailiyyət olmuşdur. Ümumiyyətlə bu cür müvəffəqiyyətlərimiz daha çoxdur.

Təhsil Nazirliyinin keçirdiyi uşaq və gənclərin əl işlərinin respublika müsabiqəsinə 30 ədəd əl işi göndərmişik. Həmin müsabiqəyə bizim bu qədər iş göndərməyimiz başqa rayonlardan iştirak edən uşaq yaradıcılıq mərkəzlərinin rəhbərlərinin diqqətindən yayınmamışdı. Müsabiqəyə göndərdiyimiz işlər Rayon təhsil şöbəsində təşkil olunmuş komissiyanın rəyi ilə 1-ci və 2-ci yerlərə layiq görülmüş işlər olmuş və söz yox ki, həmişə olduğu kimi bu müsabiqədə də bizim uşaq və yeniyetmələrin əl işləri uğur qazanacaqdır.

Qeyd etmək istərdim ki, bütün bu uğurlarımızla yanaşı işimizdə bəzi nöqsan və çatışmazlıqlar da mövcuddur. 2011-ci ildə məktəbdənkənar müəssisələrdə maliyyə nazirliyi tərəfindən aparılan yoxlama nəticəsində işimizdə bir sıra nöqsanlar olduğu üçün fəaliyyəti zəif olan qruplar bağlanıldı və dərnək rəhbərləri işdən azad edildi.

Artıq 2012-2013-cü tədris ilindən mərkəzimiz 15 qrupla fəaliyyət göstərir. Mənə belə gəlir ki, biz təhsil şöbəsi ilə birlikdə özümüzə məlum olan digər nöqsanları da aradan qaldıracaq və sübut edəcəyik ki, yalnız bacarığı, qabiliyyəti olan işçilər müəssisəmizdə çalışacaqlar. Belə olan halda uğurlarımızla biz nəinki respublikamızda, hətta onun hüdudlarından kənarda da tanınacağıq.

Mətanət İsayeva,
Ağstafa Uşaq Yaradıcılıq Mərkəzinin direktoru

Manatın məzənnəsi dəyişsə də...

Novruz bayramı ərəfəsində ölkəmizdə manatın məzənnəsi birdən-birə dəyişdi. Əhali arasında xof yarandı və hamımız təəccübləndik ki, bu nə iş idi baş verdi. Hökuməti qınadıq. Düşündük ki, bahalıq yaranacaq, qıtlıq baş verəcək. Lakin heç nə baş vermədi və heç bir təhlükə yaranmadı. Məzənnənin dəyişdirilməsinin gündəlik həyatımıza təsiri olmadı. Dövlət başçısı İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd etdi ki, "Biz məzənnəni tədricən, yavaş-yavaş dəyişdirmək istəyirdik.

Amma ondan sonra ajiotaj yarandı. Hər gün 500 milyon dollar vəsait bazarlardan yığışdırılırdı, alınırdı və belə getsə idi, Mərkəzi Bankın valyuta ehtiyatları kəskin şəkildə aşağı düşə bilərdi. Ona görə də görülən tədbirlər, iqtisadiyyatımızın şaxələndirilməsi, sosial siyasətimiz nəticəsində nəmiz insanların bu vəziyyətdən istifadə etməsinə imkan vermədik. Bütün bu məsələlər vəziyyətin sabit saxlanmasına xidmət göstərib".

Bu istiqamətdə yenə tədbirlər görülür, vəziyyət normallaşır. Bahalığın, süni qiymət artımının qarşısı nəzarət-yoxlama üsulu ilə alınmaqdadır. Gündəlik alış-veriş bu qayda ilə davam etdirilir.

Bəs, banklarda vəziyyət necədir? Bu sualla rayonumuzdakı Kapital bankın müdiri Elbrus Mürşüdova müraciət etdik. O, fikrini və manatın devalvasiyasından sonrakı aqibətini belə açıqladı:

- Manatın devalvasiyası labüd idi. Mərkəzi Bankın valyuta ehtiyatlarını qorumaq üçün atdığı inamlı və qətiyyətli addım idi. Bank bu gün də vəziyyəti sağlamlaşdırmağa cəhd göstərir. Təbii ki, daxili imkanlardan səmərəli istifadə etməklə.

Hazırda bankın işləri əvvəlki qaydada davam etdirilir. Kimi banka pul yatırır, kimi də qoyduğu pulu ehtiyacı olduğuna görə çıxarır. Bu davranış onların öz işidir, necə istəyirlər, elə də edirlər. Pul kursunun dəyişməsi isə yerli təşkilatlardan və ya kiminsə zirəkliyindən asılı deyil. Onu Mərkəzi Bank müəyyənləşdirir və bu barədə göstəriş verir.

Əməliyyatlar da əhalinin şəxsi azad fikri ilə yerinə yetirilir. Götürülən kreditlər həm xarici valyuta ilə, həm də milli manatla hesablanır. Bir sözlə, biz sifarişçinin istəyinə əməl edir, onu razı yola salmağa çalışırıq.

Bəli, manatın məzənnəsinin dəyişməsi elə də ağır və böhranlı vəziyyət yaratmadı. Bunu əhali arasındakı söhbətlərdən də eşidir və fəaliyyətlərini görürük. Respublikamızın sürətli inkişafına arxalanıb deyə bilərik ki, tezliklə narahatçılıq aradan qalxacaq, işlər səhmana düşəcəkdir. Manatın məzənnəsi dəyişsə də ağrılı hallar yaranmayıb.

Q. Qurbanov

İnsaf da yaxşı şeydi...

Bəlkə də dünyanın heç bir ölkəsində bizim vətənizmidəki kimi vətəndaşlara diqqət və qayğı göstərilmir, onların ərizə, şikayətlərinə hörmətlə yanaşılmır, problemlərinin həllə edilməsi üçün tədbirlər görülmür. Vətəndaşların ərizə və şikayətlərinə baxılması ölkəmizin hər bir bölgəsində olduğu kimi, Ağstafada da rayon rəhbərliyi qarşısında ən vacib məsələ kimi durmuş və bu gün həmin ənənə uğurla davam etdirilir.

Lakin çox təəssüflər olsun ki, rayonun bəzi vətəndaşları onlara göstərilən diqqət və qayğını düzgün qiymətləndirmir, əlini ağdan-qaraya vurmadıqları halda onlara qayğı göstərilməsini tələb edir, yuxarı orqanlara haqsız olaraq şikayət ərizələri ilə müraciət edirlər.

Belə vətəndaşların bəziləri haqqında müəyyən məlumatları oxucularımıza çatdırmağı özümüzə borc bilir və bu barədə bizdə olan məlumatları heç nədən, heç kimdən çəkinmədən qəzetimizdə dərc edirik.

Böyük-Kəsik kəndi rayon mərkəzindən xeyli aralıda yerləşməsinə baxmayaraq rayonun rəhbər işçiləri tez-tez bu yaşayış məntəqəsində olur, vətəndaşlarla açıq görüşlər keçirir, söhbətlər aparırlar. Bu görüşlərdə kənd sakinlərinin əksəriyyəti kimi burada yaşayan Dilarə Həsən qızı Əliyeva da iştirak etmiş, onun şikayətinə qanunauyğun şəkildə baxılmış, imkan daxilində ona lazımi köməklik göstərilmiş və yardım edilmişdi.

Həyat yoldaşı, yetkinlik yaşına çatmış 3 oğlu, 1 qızı olan Dilarə Əliyevaya son üç ildə həyətyanı torpaq sahəsi verilmiş, həmin torpaq sahəsində yaşayış evi tikilmiş, sosial yardım olunmuş, sosial pensiya məsələsi həll edilmiş və bir sözlə bu vətəndaşa hər cür yardımlar göstərilmişdir. Lakin D. Əliyeva ona göstərilən bu qayğını düzgün qiymətləndirmək əvəzinə qeyri-sağlam mövqedə dayanaraq daha böyük iddialarda olmuş, yerli hakimiyyət orqanlarına, yuxarı təşkilatlara şikayət məktubları yazmağını davam etdirmişdi.

D. Əliyeva ona maddi yardım göstərilməsi barədə prezident administrasiyasına 2012-ci ildə səkkiz dəfə, 2013-cü ildə yeddi dəfə, 2014-cü ildə 16 dəfə müraciət etmiş, şikayət ərizələri yazmışdır. Bütün bunlarla kifayətlənməyən D. Əliyeva dəfələrlə Rayon icra hakimiyyətinin rəhbər işçilərinin qəbulunda olmuş, heç nəyə məhəl qoymadan başqa təşkilatlara da haqsız şikayət ərizələri yazmağı davam etdirmişdi. Onun bu hərəkətlərinə hansı adı vermək olduğunu nə qədər çətin olsa da, üzümüzü belə adamlara tutub təkcə onu deyə bilərik ki, ay hörmətli Dilarə xanım, adamda insaf da yaxşı şeydir. Sənin kimi maddi vəziyyəti çətin olan adamlar rayonumuzda az da olsa vardır. Bəlkə də sənə edilən yaxşılıqlar, göstərilən yardımlar həmin imkansız adamların heç birinə göstərilməmişdir.

Maraqlı burasıdır ki, Dilarə Əliyevanın yolu ilə gedən, bütün günü yuxarı orqanlara şikayət məktubları yazmaqla məşğul olan başqalarıda vardır. Belələrindən biri də Ağstafa şəhər sakini Tamara İmran qızı Kərimovadır. Dilarə Əliyevaya etdiyimiz iradları təreddüd etmədən elə bu xanıma da şamil etmək olar. Belə ki, T. Kərimova qonşusu ilə aralarında olan münaqişə ilə əlaqədar təkcə 2014-cü ildə prezident administrasiyasına 24 dəfə müraciət etmişdi. Bu ərizələri ilə əlaqədar o, Rayon icra hakimiyyətinə dəvət olunmuş, müraciətinə komission qaydada yerində baxılmış, lazımi izahat verilmişdir. Şikayəti mülki məsələyə aid olduğuna görə ona aidiyyəti üzrə müvafiq orqanlara müraciət etməsi tövsiyyə edilmişdir.

Lakin bütün bunlara baxmayaraq T. Kərimova öz inadından əl çəkməmiş, tələbinin ödənilməsi üçün qanunamüvafiq qaydada hərəkət etməkdən imtina etmişdir.

Aparılan araşdırmalardan aydın olmuşdur ki, T. Kərimovanın son iki ildə Rayon icra hakimiyyətinə qırx dəfə rəsmi qaydada müraciəti daxil olmuşdur. Göründüyü kimi, T. Kərimova da tələbinin həll edilməsi üçün qanundan bərk yapışmaq əvəzinə ədalətsiz yollara əl atmış, özünə və həm də başqalarına mənəvi əzab verməyi daha üstün tutmuşdu.

Odur ki, biz Dilarə Əliyevaya etdiyimiz iradları Tamara Kərimovaya da aid edir, onların hər ikisinə haqq yolunu tutmağı məsləhət görürük.

İ. Əliyev

Qızıl və bürünc medallar

Rayonumuzun ümumtəhsil məktəblərində şagirdlərin bilik və bacarıqlarının artırılmasına sərf edən fənn müəllimlərinin zəhməti həmişə bəhrə verir. Belə ki, fənn olimpiadalarında iştirak edən şagirdlər müəllimlərinin etimadını doğruldur, layiqli mükafatlarla təltif olunurlar.

Rayonun Dağkəsəmən, Qaçaq Kərəm, Zəlimxan və Böyük-Kəsik orta məktəblərinin rayon və zona turlarında qalib gələn şagirdləri respublika turuna vəsiqə qazanmışlar.

Ötən həftə Bakıdan şad xəbər alınmışdır. Dağkəsəmən 1 saylı tam orta məktəbinin IX sinif şagirdi Nərgiz Məmmədova biologiya fənni üzrə yarışmada qızıl, Qaçaq Kərəm kənd tam orta məktəbinin XI sinif şagirdi Nicat Rüstəmov isə fizika fənni üzrə bürünc medal qazanmışlar. Respublika turunun digər iştirakçıları da fərqləndirici yerlərə layiq görülmüşlər.

Bildiriş-xəbərdarlıq!

Gəlir vergisi bəyannaməsinin vaxtında təqdim olunması barədə

Hörmətli vergi ödəyiciləri!

14 saylı Ərazi Vergilər İdarəsi məlumat üçün nəzərinizə çatdırır ki, siz Gəlir verginin ödəyicisi kimi vergi orqanında uçota alınaraq fəaliyyət göstərirsiniz və sizin Azərbaycan Respublikası Vergi Məcəlləsində nəzərdə tutulan vəzifələriniz vardır. Gəlir vergisi dedikdə, fiziki şəxsin təqvim ili ərzində əldə etdiyi bütün gəliri ilə gəlirdən Vergi Məcəlləsinə uyğun olaraq çıxılan məbləğ arasındakı fərqdən hesablanan vergidir. Gəlir vergisinin ödəyiciləri əldə etdikləri gəlirdən 20 faiz dərəcə ilə vergi ödəyirlər. Gəlir vergisinin hesabat dövrü təqvim ili sayılır. 2014-cü ilin yekunlarına görə illik Gəlir vergisi üzrə bəyannamə və onun əlavələrini siz 2015-ci ilin mart ayının 31-dən gec olmayaraq 14 saylı Ərazi Vergilər İdarəsinə təqdim etməlisiniz.

Odur ki, 31 mart 2015-ci il tarixdən gec olmayaraq 2014-cü ilə görə Gəlir vergisinin bəyannaməsini və ya vergi öhdəliyinin yaranmaması barədə müvafiq arayışı vergi orqanına elektron formada (www.e-taxes.gov.az <http://www.e-taxes.gov.az>) təqdim etməyinizi sizə bildiririk.

Vergi Məcəlləsinin 72-ci maddəsinə vergi hesabatlarını verməyə borclu olan vergi ödəyiciləri vergi hesabatını müəyyən edilmiş müddətdə və təsdiq edilmiş formada təqdim etməlidirlər. Vergi Məcəlləsinin 57.1-ci maddəsinə əsasən bəyannaməni (arayışı) əsas olmadan müəyyən edilmiş müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir və eyni zamanda Vergi Məcəlləsinin 83-cü maddəsimə uyğun olaraq əlaqəli məlumata əsasən vergi hesablanır.

Gəlir vergisinin ödəyiciləri hər rüb başa çatdıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Vergi və cari vergi ödəmələri qanunla müəyyən edilmiş müddətdə ödənilmədikdə, Vergi Məcəlləsinin 59.1-ci maddəsinə əsasən ödəmə müddətindən ötmüş hər bir gün üçün vergi ödəyicilərindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0.1 faizi miqdarında faiz tutulur. Bu faiz vergi ödənişlərinə münasibətdə bütün müddətə, ancaq bir il müddətindən çox olmamaq şərti ilə tətbiq edilir.

Hesabat formaları və onların tərtib edilməsi qaydaları Vergilər Nazirliyinin www.taxes.gov.az <http://www.taxes.gov.az> internet saytında yerləşdirilmişdir.

Əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin 195 nömrəli telefon xidmətinə (iş günləri saat 9:00-dan 18:00-dək), 14 saylı Ərazi Vergilər İdarəsinin vergi ödəyicilərinə xidmət şöbəsinə (Şəmkir şəhəri H. Əliyev prospekti 5, tel: 02230-5-31-03), Vergi ödəyicilərinə Xidmət Mərkəzlərinə (Qazax şəhəri S. Arıxov küçəsi 4, tel: 02229-5-09-57, Ağstafa şəhəri Qarabağ məhəlləsi, tel: 02222-5-35-90, Tovuz rayonu Abulbəyli kəndi, tel: 02231-5-73-69 və Gədəbəy şəhəri V. Rüstəmov küçəsi, tel: 02232-6-36-57) müraciət edə bilərsiniz.

14 saylı Ərazi Vergilər İdarəsi

Etibarsız sayılır

Poylu qəsəbə sakini Bilalova Mahirə Qulu qızının adına verilmiş JN-110 nömrəli Torpağa mülkiyyət hüququna dair Dövlət Aktının 17 nömrəli torpaq sahəsinin qaiməsi (sertifikat) itdiyi üçün etibarsız sayılır.

***

Köçvəlili kənd sakini Quliyev Mübariz Süleyman oğlunun adına verilmiş JN-0078 nömrəli Torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Köçvəlili kənd sakini Osmanov Fərhad Nüsrət oğlunun adına verilmiş JN-0038 nömrəli Torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Zəlimxan kənd sakini Yusifova Vartanuş Serqeyevnanın adına olan 506 saylı yaşayış evinin "Qeydiyyat vəsiqəsi" itdiyi üçün etibarsız sayılır.

***

Muğanlı kənd sakini Hacıyev Azər Hacı oğlunun adına olan JN-235 nömrəli (kod 5020007) Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Köçəsgər kənd sakinin Sadıxov Sabir Şamil oğlunun adına olan 179 saylı "Qeydiiyat" vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

"Elin havasına bəstələnmişəm"



Allahverdi Atəş dərin məzmunlu, hikmətli kəlamlarla, atalar sözləri ilə dolu şeirlərin müəllifi kimi oxuculara yaxşı tanışdır. Müxtəlif almanaxlarda dərc olunmuş və iki ayrıca kitab şəklində nəşr edilmiş şeirləri-qoşma və gəraylıları, təcnis və divaniləri, cinaslı bayatıları ilə bütün poeziya sevərlərin rəğbətini qazanmışdır.

"Elin havasına bəstələnmişəm" kitabı istedadlı el şairinin üçüncü kitabıdır. Bu maraqlı kitab bir neçə il bundan əvvəl dünyasını dəyişmiş Allahverdi Atəşin yoxluğuna inanmayan sədaqətli oxucuların, əsl Atəşsevərlərin qəlbinə bir təskinlik olacaqdır.

Ənənəyə sadiq qalaraq yeni kitabda da el şairinin müxtəlif janrlı şeirləri toplanmışdır. Ümidvarıq ki, oxucular, poeziya pərəstişkarları üçüncü kitabdakı seçimlərdə razı qalacaqlar.

Bu qeydlərlə bərabər Allahverdi Atəşin yeni dərc olunan bir şeirini də əlavə edirik.

Mən el məsəliyəm, elin sözüyəm,
Elin havasına bəstələnmişəm,
Çəmən çiçəyiyəm, çöl çiçəyiyəm,
Bir-bir toplanaraq dəstələnmişəm.

Qəlbim bəlkə yüz yerindən ox alıb,
Ağrıya, acıya dözmür, yuxalıb,
İndi cızmaqara yazan çoxalıb,
Mən kənarda qalıb üstələnmişəm.

Atəş çox çəkilib dilindən dara,
Uymayıb dövlətə, uymayıb vara,
Birdimi, beşdimi, sayam qurtara,
Hər cür xəstəliknən xəstələnmişəm.

Silsilə tədbirlər

Hərbi vətənpərvərlik tərbiyəsi bu gün də dövlət siyasətinin əsasını təşkil edən sahələrdən biridir. Gəncləri bu ruhda tərbiyə etmək başlıca məqsədə çevrilmişdir. Rayon Gənclər və İdman İdarəsi də bu istiqamətdə mühüm tədbirlər həyata keçirir. Ötən ildən bəri yeniyetmə və gənclərin hərbi vətənpərvərlik tərbiyəsi sahəsində "Vətənin müdafiəsinə hazıram", "Sərhədçi", "Gənc xilasedici", "Cəsurlar" və "Şahin" hərbi idman oyunlarının keçirilməsi davamiyyətli xarakter almışdır.

Gənclər idarəsində cari ilin ilk günlərindən də bu kimi silsilə tədbirlər həyata keçirilir. Orta məəktəb şagirdlərini zabitlik peşəsinə həvəsləndirmək, ordumuzda olan yenilikləri gənclərə çatdırmaq, maarifləndirici görüşlər təşkil etmək kimi tədbirlər həyata keçirilmiş, söhbətlər aparılmışdır. Bu qəbildən "Şahin" hərbi idman oyunları daha maraqlı olmuşdur. Rayon birinciliyi aprelin 10-da şəhər 2 saylı tam orta məktəbində baş tutumuşdur.

Yarışlara ümumilikdə 36 orta məktəbin komandaları qatılmışdır. Burada 504 nəfər yeniyetmə və gənc iştirak etmişdir. Gərgin mübarizə şəraitində keçən yarışda birinci yerə Saloğlu kənd tam orta məktəbin komandası, 2-ci yerə Həsənsu kənd tam orta məktəbin komandası, 3-cü yerə isə şəhər 1 saylı və 2 saylı orta məktəbin komandaları layiq görülmüşlər.

***

Ötən hər gün bizi ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə yaxınlaşdırır. Hər il olduğu kimi, bu il də rayon gəncləri dahi rəhbərin yubileyi şərəfinə idman yarışları keçirirlər.

Rayon Gənclər və İdman İdarəsinin və Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatı birgə təşkilatçılığı ilə mini futbol üsrə yarışlara start verilmişdir. Bununla əlaqədar Ağstafa şəhər stadionunda açılış mərasimi olmuşdur. İdarə, müəssisə və təşkilat komandalarının final oyunları bu ilin may ayında keçiriləcəkdir.

Turan Hüseynov,
Rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi

BAŞ REDAKTOR:

İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
"Ağstafa" qəzetinin jurnalist kollektivi

Şəadətnamə № 308

Redaksiya heyəti

L.Eyyubova, K.Abbasov, V.Əkbərov, İ.Əliyev, N.Mehdixanlı, F.Vəliyev, İ.Mustafayev, A.Tağızadə

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.

Ünvan:
Ağstafa şəhəri,
Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000